PricewaterhouseCoopers Global (PwC) dünyanın peşəkar xidmət şirkətlər şəbəkələrindən biridir. İndiki formada şirkətlər şəbəkəsi baş ofisləri Londonda yerləşən Price Waterhouse and Coopers və Coopers & Lybrand şirkətlərin birləşməsi nəticəsində 1998-ci ildə yaradılmışdır. PwC-nin 2023-cü maliyyə ili üzrə gəlirləri 53 milyard ABŞ dollar təşkil etmişdir. PwC Global şəbəkəsinin 151 ölkədə 364,232 mütəxəssis çalışır.

Artıq beş il ardıcıl olaraq PwC Vault Accounting 50 reytinqində ön sıralardadır. Onlayn karyera portalı "Vault" özünün altıncı "Accounting 50" nəşrində çərşənbə axşami 2019-cu ildə karyera üçün ən yaxşı 50 mühasibat uçotu və audit şirkətlərinin reytinqini dərc etmişdir. 8,800 artıq mütəxəssisin rəylərdən istifadə edərək şirkətlər nüfuz, korporativ mədəniyyət və işdən məmnunluq kimi bir sıra amillərə görə bu sırada göstərilmişdir.

Azərbaycanda 1995-ci ildə fəaliyyətə başlamış PraysvoterhausKupers (PwC) Azərbaycan respublikada peşəkar xidmətlər göstərən ilk beynəlxalq şirkətlərdən biridir. Şirkətimiz yerli iqtisadiyyata və biznes mühitinə əhəmiyyətli dərəcədə investisiyalar qoymuş və bu ənənəsini davam etdirməkdədir.

Müştərilərimizə keyfiyyətli xidmətlər göstərməklə yanaşı, biz əməkdaşlarımızın peşəkar inkişafına da xüsusi önəm veririk. Son 29 il ərzində biz çox sayda yüksək səriştəli mütəxəssislər üçün təlimlər keçmiş və onların peşəkarlıq səviyyəsini inkişaf etdirmişik. Onlardan bir çoxu hələ də bizimlə çalışır, bəziləri isə Azərbaycanda özəl sektorun inkişafına öz töhfəsini verir.

PwC Azərbaycan ofisində 2 partnyor, 5 direktor və 6 ölkədən seçilmiş beynəlxalq və yerli mütəxəssislər daxil olmaqla 160 işçi çalışır.

PwC Azərbaycan yerli və beynəlxalq mütəxəssislərin geniş bilik və təcrübəsi sayəsində müştərilərimizə yüksək səviyyəli peşəkar xidmətlər göstərir. Biz müştərilərimizin artan tələblərinə cavab vermək üçün hərtərəfli xidmətlər təqdim edirik. Bu xidmətlər bu günə qədər Azərbaycanda həyata keçirilən bəzi ən böyük və texniki cəhətdən mürəkkəb layihələri qəbul etməyimizə və uğurla başa çatdırmağımıza imkan vermişdir. PwC bu sektorda lider kimi tanınır və peşəkar standartları müəyyən edən şirkət kimi qəbul edilir. İctimai məsələlər ilə bağlı fikirlərimiz yüksək qiymətləndirilir və daim nəzərə alınır.

PwC Azərbaycan neft-qaz sənayesi, bank və maliyyə xidmətləri, eləcə də telekommunikasiya və istehlak məhsulları sektorunda geniş təcrübəyə malikdir. Biz audit, vergi, hüquq və məsləhət xidmətləri sahəsində keyfiyyəti təmin etməklə yanaşı, şirkətlərə və insanlara əldə etmək istədikləri dəyəri qazanmağa kömək edirik. PwC-nin müştəri portfelinə yeni və inkişaf etməkdə olan müəssisələrlə yanaşı dünyanın aparıcı beynəlxalq şirkətləri, böyük ailə şirkətləri, dövlət müəssisələri, QHT-lər və özəl şirkətlər daxildir. Cəmiyyətdə etimad yaratmaq və mühüm problemləri həll etmək Şirkətimizin əsas hədəflərindəndir.